# Böyük dayaq

## İlham Əliyev Azərbaycan idmanının himayəçisidir

Dünyanın bir çox ölkələrində olmuşam. Müxtəlif beynəlxalq idman yarışlarında və paralimpiya oyunlarında ayrı-ayrı xalqların nümayəndələri ilə görüşmüşəm, söhbət etmişəm. Vətənimizə sevgi, ölkəmiz üçün qürur və xalqımız üçün iftixar hissi bir an belə qəlbimi tərk etməyib. Son illər bu hisslər birəyüz artıb.

Biz artıq qalib xalqın nümayəndələri, qalib ölkənin vətəndaşlarıyıq. Bu xoşbəxtliyi bizə yekdilliklə səs verib yenidən Prezident seçdiyimiz İlham Əliyev bəxş edib. Müdrik lider, müzəffər sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mənfur düşməni torpaqlarımızdan qovdu, suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik. Bundan sonra dünya Azərbaycanı və onun Prezidentini daha yaxşı tanıdı, böyüklüyünü və möhtəşəmliyini daha aydın gördü.

Səfərlərdə və yarışlarda həmsöhbətlərimdən bu sözləri tez-tez eşidirəm: "Xoşbəxtsiniz ki, belə Prezidentiniz var". Əlbəttə, onlardan da Bakıya, digər şəhər və bölgələrimizə gələnlər olur. Ölkəmizin bugünkü yüksəlişini və tərəqqisini əyani görürlər, bu barədə bir-birilərindən eşidirlər, mediadan məlumat alırlar. Odur ki, xalqımızın öz liderinə sevgi və ehtiramından, onun ətrafında sıx birləşməyimizdən hərtərəfli xəbərdardırlar.

İlk növbədə isə biz özümüz bunların fərqindəyik. Çünki bu quruculuğun, inkişafın və yüksəlişin bəhrəsini öz həyatında görən bizik, hər bir Azərbaycan vətəndaşıdır.

Dövlətimizin başçısı hələ neçə il bundan qabaq demişdir ki, hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının Prezidentidir. İlham Əliyev sözü imzası qədər kəsərli olan rəhbərdir. Bir sözü dedimi, mütləq onu həqiqətə çevirir. 20 ildən artıq bir müddətdə, doğrudan da, hər birimizin Prezidenti olduğunu münasibəti, qayğısı, işi-əməli ilə sübuta yetirdi.

Bu qayğını əhalinin həssas təbəqəsi daha yaxından hiss edir. Həssas təbəqənin sağlamlığı, məşğulluğu, mənzil-məişət şəraiti daim dövlətin diqqət mərkəzindədir. O cümlədən pensiya, təqaüd, müavinət və digər sosial ödənişlərin ildən-ilə artırılması da bunu təsdiqləyir. Bir sözlə, ölkəmizdə vətəndaşa göstərilən münasibət ən ibrətamiz insanpərvərlik nümunəsidir.

Prezidentin idmana və idmançılara, o cümlədən biz paralimpiyaçılara diqqəti xüsusi qeyd olunmalıdır. Milli Olimpiya Komitəsinin prezidenti kimi İlham Əliyevin Azərbaycan idmanına göstərdiyi həmin diqqətin nəticəsidir ki, bir çox beynəlxalq yarışlarda himnimiz səsləndirilir, bayrağımız ucaldılır. İdmançılarımız Vətənə qızıl, gümüş, bürünc medallarla qayıdırlar.

Azərbaycanın az qala hər rayonunda olimpiya kompleksləri ucaldılıb, ən müasir idman avadanlıqları quraşdırılıb. Bu da sağlam bədənli və sağlam ruhlu gənclərimizin yetişməsinə xidmət edən mühüm bir amildir.

Hər bir azərbaycanlının Prezidentinin mənim həyatımda da böyük yeri var. Sadə əməyim dövlət tərəfindən yüksək qiymətləndirilib. Böyük qürür duyuram ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla "Şöhrət" ordeninə, fəxri diploma, "Tərəqqi" medalına, 3-cü dərəcəli "Əmək ordeni"nə layiq görülmüşəm. Prezidentin fərdi təqaüdçüsüyəm, mənə Əməkdar məşqçi fəxri adı da verilib.

İllər əvvəl kirayənişin qaldığım otaqdan Ulu Öndərin verdiyi ikiotaqlı mənzilə köçmüş və övladlarımı orada boya-başa çatdırmışam. O vaxtdan bəri ailə üzvlərimin sayı artıb və Prezident İlham Əliyev mənə geniş mənzil də hədiyyə edib.

Onu da demək istəyirəm ki, gözdən əlil adlanan, yəni dünya işığından məhrum olan bizlər belə müdrik Prezidenti olan işıqlı bir ölkədə özümüzü nur, işıq içində hiss edirik.

***Allahverdi CULFAYEV,***
***Milli Paralimpiya Komitəsinin üzgüçülük üzrə yığma komandasının baş məşqçisi, Əməkdar məşqçi, Prezidentin fərdi təqaüdçüsü***

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.13.